# Zamana sığmayan lider

## *Milli Məclisin deputatı Sadıq Qurbanovun “Zamana sığmayan lider Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi” əsəri üzərində düşünərkən*




***Bu möhtəşəm əsərdə böyük dövlət xadimi , Azərbaycanın yetişdirdiyi, Türk dünyasının qürur mənbəyi olan ümummilli lider Heydər Əliyevə xas bütün keyfiyyətlər hərtərəfli təhlil edilib. Əsər dünya liderlərinin ulu öndərin vəfatından sonra onun haqqında dedikləri sözlərə, həqiqətən də, layiq olduğunu göstərən mühüm bir mənbə hesab edilir. Müxtəlif vaxtlarda dünyanın tanınmış dövlət xadimlərinin ulu öndər Heydər Əliyev haqqında söylədiyi bəzi fikirləri təqdim edirik:***

***Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında sevilən liderdir.***

***Rəcəb Tayyib ƏRDOĞAN, Türkiyə Prezidenti***

***Heydər Əliyev böyük dövlət xadimi idi, mübaliğəsiz deyə bilərik ki, o, siyasət nəhəngi idi.***

***Vladimir PUTİN, Rusiya Prezidenti***

***Heydər Əliyevin şəksiz liderliyinə, onun cəsarətinə, bənzərsiz baxış bucaqlarına və nitq qabiliyyətinə heyranam.***

***Corc BUŞ, ABŞ Prezidenti***

***Heydər Əliyev Azərbaycanın ulu öndəri idi. O, böhranlı vaxtlarda ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun irsi ilə öyünə bilər.***

***Toni BLEER, Böyük Britaniyanın Baş naziri***

***Prezident Heydər Əliyev Azərbaycanın müstəqilliyinin və ölkənin hazırkı inkişafının əsasını qoymaqla yanaşı, regionda sülhün və sabitliyin qorunması sahəsində misilsiz xidmətlər göstərmiş nadir lider idi.***

***Dzünitiro KOİDZUMİ, Yaponiyanın Baş naziri***

Bu ifadələr nəzərə alındıqda dünya üçün belə bir dəyərli, dahi şəxsiyyətin bütün cəhətlərindən bəhs edən əsər zəruri idi.

Tarix boyu liderlik keyfiyyətlərini müəyyən edən müxtəlif izahlar verilmişdir. Elmi ədəbiyyatda tarixdə iz qoymuş liderlərin aşağıdakı ümumi xüsusiyyətləri qeyd olunmuşdur:

1. Gələcəkyönlü baxış bucağına sahib olmaq;
2. Özünə inamın güclü olması;
3. Yüksək səviyyəli təsir gücü və hökmranlıq ehtirası;
4. İnanclarının doğruluğuna inandırmaq qabiliyyəti;
5. Rəhbərlik etdiyi insanların xeyrinə riskə getmək;
6. Yeri gəldikdə özünü qurban verməyi bacarmaq;
7. Mövcud şərtləri real qiymətləndirmək qabiliyyəti;
8. Özünü güclü şəkildə ifadə edərək inanc yaratmaq bacarığı;
9. Motivləri aktivləşdirmək;
10. Müsbət enerjiyə inanmaq.

Həqiqətən də, əsəri diqqətlə oxuduqda aydın şəkildə anlamaq olur ki, dünya azərbaycanlılarının lideri olan Heydər Əliyev bütün bu xüsusiyyətləri öz simasında cəmləyən XX əsrin nadir liderlərindəndir. Türk tarixinin liderləri araşdırıldıqda, bir neçə tarixi şəxsiyyətin bu xüsusiyyətlərə malik olduğunu görə bilərik. Xüsusilə, bu günün hibrid liderlik üslubları tarixi prosesdə liderlərin görkəmli xüsusiyyətləri tamamlayır. Türk tarixində liderliyi ilə seçilən şəxsiyyətlərdə orijinallıq, xidmət, yenilikçi, xarizmatik, prinsipial, bəzən islahatçı və ilhamverici liderlik xüsusiyyətləri görünür. Mete xan, Bilgə Xaqan, Sultan Alparslan, Fateh Sultan Mehmet, Mustafa Kamal Atatürk kimi türk ululları tarixdə öz yerlərini tutublar. Qeyd edək ki, tarixi türk öndərləri ilə yanaşı, Heydər Əliyev də bir çox liderlik xüsusiyyətlərini xalqa və bütün dünyaya sübut etmiş və adını XX əsrin tarixinə yazdırmışdır. O, əcdadlarına layiq ləyaqət göstərmişdir.

“Zamana sığmayan lider” kitabı Azərbaycan xalqının ulu öndəri Heydər Əliyevin siyasi fəlsəfəsinin praktiki tətbiqini təsvir edir. Bu kitab onun fəaliyyətinin əsas prinsip və müddəalarının təhlili əsasında siyasi-fəlsəfi bünövrə yaratmaq cəhdidir. Əsərdə ulu öndər Heydər Əliyevin sovet dövrü Azərbaycanında və Moskvada qazandığı idarəçilik təcrübəsinin ölkəmizin ictimai-siyasi həyatında fəlsəfə, iqtisadiyyat, mədəniyyət, nəzəriyyə və sosiologiya sahələrində, ümumiyyətlə, dövlətin yenidən qurulmasında mühüm tolu öz əksini tapmışdır. Bu istiqamət Azərbaycanda milli dövlətin yaradılması, vətəndaşlıq, millət, dövlət, vətənpərvərlik, tarixi şüurun gücləndirilməsi, gələcəyə gedən yolun möhkəmləndirilməsi üçün sarsılmaz təməllər qurmaq istəyinin təzahürüdür.

XX əsr Azərbaycan tarixində Heydər Əliyev kimi nadir və dahi şəxsiyyət yetişib. Bu əsrdə Atatürk, Nehru, de Qoll və digər tarixi şəxsiyyətlərlə yanaşı, Heydər Əliyev də liderlər siyahısında öz layiqli yerini tutub. Heydər Əliyev fəlsəfəsinə siyasətdə və iqtisadiyyatda milli dövlət anlayışı və milli ideologiya vəhdəti, mədəni irs və milli-mənəvi dəyərlər, demokratik dövlətçilik, Azərbaycanın dirçəliş nəzəriyyəsi və praktikası daxildir. Heydər Əliyev siyasi fəlsəfəsinin təməl daşını milli maraq, milli dirçəliş, siyasi modernləşmə, dövlət təsisatlarının fəaliyyətinin intensivləşdirilməsi, əhalinin vətəndaş fəallığı təşkil edir. Heydər Əliyev siyasəti iqtisadiyyata, mədəniyyətə, milliyətçiliyə bağlıdır. Bu sistem əxlaqi dəyərləri özündə ehtiva edən nəhəng bir zəncirdir. Bütün bu fikirlər Heydər Əliyevin siyasət fəlsəfəsi, bioqrafiyası, tarixi, siyasət və cəmiyyət birliyini araşdırmaq üçün lazımdır. Beləliklə, böyük liderin siyasətinin fəlsəfi əsaslarını siyasi və fəlsəfi irsi gələcək nəsillərə ötürülə bilər.

Bütün həyatını xalqının parlaq gələcəyinə, Azərbaycanın inkişafına və müstəqilliyinə həsr etmiş ümummilli lider Heydər Əliyevin Vətəninə, xalqına, milli və mənəvi dəyərlərinə, dilinə, mədəniyyətinə və ədəbiyyatına olan sonsuz sevgisi, onların qorunması və tərəqqisi uğrunda həyatı boyu apardığı mübarizə, dövrün sərt qadağalarına baxmayaraq, milləti və Vətəni naminə atdığı cəsarətli addımlar, Azərbaycanın bugünü adına həyata keçirdiyi bənzərsiz və fövqəladə işlərdir. Heydər Əliyev dövlətini inkişafını və müstəqilliyini hər şeydən üstün tutmuş və bunun naminə fövqəltəbii əmək sərf etmişdir.

Ulu öndərin 1994-cü il Türkiyə ziyarətində dediyi, Türkiyə ilə Azərbaycan arasındakı münasibətləri dünyada bənzəri olmayan bir qardaşlıq bağı ilə əlaqələndirən “Bir millət, iki dövlət” kəlamının qarşılıqlı strateji ortaqlıq çərçivəsində rolu unudulmazdır. O, Türkiyə ilə Azərbaycan arasındakı ticari, iqtisadi, sosial, mədəni və digər mövzularda daha müsbət işlər görmək istəyində olan bir lider idi.

Liderlər məsləhət ala, fikir bölüşə, risk edə bilər. Amma bunlardan ən önəmlisi qərar qəbul etməkdir. Azərbaycanın və Türk dünyasının böyük lideri olan Heydər Əliyevin gələcəkyönlü strategiyası və qəbul etdiyi qərarlar sayəsində Azərbaycan və Türkiyə beynəlxalq enerji bazarının aktiv siyasi yönvericilərinə çevrildilər. Heydər Əliyevin təməlini qoyduğu bu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu istiqamətdə Bakı–Tbilisi–Ceyhan qaz xətti və Bakı–Tbilisi–Qars dəmir yolu xətti kimi bir çox önəmli regional layihələr həyata keçirilmişdir. Hazırda Azərbaycanın Türkiyə üzərindən Avropaya təbii qaz ixrac etməsində önəmli layihə olan Trans Anadolu qaz xəttinin (TANAP) memarı da məhz Heydər Əliyevdir.

Həyatı boyu bir çox çətin vəziyyətdə strateji dəyanət göstərərək adını tarixə qızıl hərflərlə yazdıran Heydər Əliyev 1923-cü il mayın 10-da Naxçıvanda dünyaya gəlib. Heydər Əliyev 1982-1987-ci illər ərzində Sov. İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində işləyib. O, bu dövr ərzində Azərbaycanla əlaqəli böyük layihələr həyata keçirib. Ulu öndər sürgündə vəfat edən Azərbaycanın böyük şairi Hüseyn Cavidin nəşini 41 il sonra uzaq Sibirdən Naxçıvana gətirtmişdi. Heydər Əliyev 1987-ci ildə Mixail Qorbaçovun Azərbaycanla bağlı ədalətsiz yanaşmasını qəbul etməyərək, istefa vermişdi. Sovet ordusunun 20 Yanvar 1990-cı ildə Bakıya girərək Azərbaycan türklərini şəhid edəndə də yenə Heydər Əliyev sərt reaksiya vermişdi. Ümummilli lider 1990-cı ildə doğulduğu Naxçıvandan millət vəkili, daha sonra 1991-ci ilin sentyabrında Naxçıvan Ali Məclisinin Sədri seçilmişdi.

Heydər Əliyev 1993-cü il iyulun 24-də Azərbaycan Milli Məclisinin qərarı ilə Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır. Qısa müddət sonra gerçəkləşən seçkilər zamanı xalq ona etimad göstərdi və Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Prezidentlik dövrü 2003-cü il oktyabrın 15-dək davam etdi. Ulu öndər 12 dekabr 2003-cü ildə əbədi aləmə qovuşdu.

Bəzi liderlər var ki, aramızdan ayrılsalar da, öz fikir və ideyaları ilə daim bizimlə yaşayırlar. Heydər Əliyev də siyasi görüşləri, gələcəkyönlü düşüncə tərzi ilə yalnız Azərbaycanda deyil, bütün Türk dünyasında, türk coğrafiyasında yaşamaqdadır.

Böyük liderin ən böyük xidmətlərindən biri də özündən sonra siyasi mirasını və mübarizəsini davam etdirəcək bir lider yetişdirməsidir. Onun ən böyük arzusu işğal altında olan torpaqlarımızda yenidən Azərbaycan bayrağının dalğalanması idi. Vəfatından 17 il sonra varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun bu istəyini gerçəkləşdirmişdir. Beləliklə, cənab İlham Əliyev bütün dünyaya atasının ona göstərdiyi etimadın nə qədər doğru olduğunu sübut etmişdir. Cənab İlham Əliyev, eyni zamanda, ulu öndərin siyasi irsini ən yüksək səviyyədə davam və inkişaf etdirmək iqtidarında olduğunu da təsdiqləmişdir. Qarabağ Zəfəri ilə özünü türk tarixinin əbədiyaşar liderləri sırasına daxil edən müzəffər Ali Baş Komandan İlham Əliyev adını tarixə qızıl hərflərlə həkk etməyi bacarmışdır.

Əsərin son hissəsində gördüyü işlər bütün dünyada yüksək qiymətləndirilən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyətindən danışılaraq bildirilir ki, o, öhdəsinə götürdüyü bu müqəddəs vəzifəni böyük uğurlarla davam etdirir, xalqın dualarını qazanır.

Sadiq Qurbanovun bu əsəri ulu öndər Heydər Əliyevin fikirlərini gələcək nəsillərə ötürməkdə müstəsna rol oynayacaq bir mənbədir. Bu dəyərli əsəri oxumaqla ulu öndər Heydər Əliyevi daha dərindən tanıdım. Bütün Azərbaycan və Türk dünyası gənclərinin bu möhtəşəm əsəri oxuması və ondan faydalanması diləyi ilə...

Türk dünyasının böyük oğlu Heydər Əliyevə əbədi rəhmət diləyirəm...

***Camal ZEHİR,***
***Yıldız Teknik Universitetinin professoru***